# Füzuli şəhəri “Sülh Şəhərləri Başçıları” təşkilatına üzvü oldu



Yaponiyanın Azərbaycan Respublikasındakı Səfirliyi məmnuniyyətlə bildirir ki, 01 iyun 2021-ci il tarixində Füzuli şəhəri BMT qeydiyyatı olan “Sülh Şəhərləri Başçıları” adlı beynəlxalq qeyri-hökumət təşkilatının üzvlüyünə qəbul olunmuşdur.

Ağdam (2016/10), Qubadlı (2016/10), Cəbrayıl rayonu (2016/10), Xocalı (2016/10), Zəngilan rayonu (2016/10), Şuşa rayonu (2016/11), Kəlbəcər (2016/11), Xocavənd (2016/11) və Laçın (2016/12) ilə birlikdə Füzuli şəhəri nüvə silahlarsız dünya naminə, daimi qlobal sülhə və insanların rifahına töhfə vermək üçün “Sülh Şəhərləri Başçıları” təşkilatının təşəbbüsünə qoşulan Azərbaycan Respublikasının 10-cu şəhəri olmuşdur.

“Sülh Şəhərləri Başçıları” proqramı 1982-ci ildə Yaponiyanın Hiroşima şəhərinin o zamankı bələdiyyə başçisi Takeşi Araki tərəfindən təsis edilmişdir. Sülh Şəhərləri Başçılarının məqsədləri üzv şəhərlər arasında sıx həmrəylik yolu ilə nüvə silahlarının tamamilə ləğv edilməsi, dünya üzrə insanlar arasında narahatçılıq doğuran aclıq və yoxsulluq, qaçqınların vəziyyəti, insan haqları və ətraf mühitin tarazlığının pozulması kimi həyati problemlərin həlli üçün səy göstərməklə davamlı qlobal sülhə nail olmaqdır.

01 iyun 2021-ci il tarixinə olan məlumata görə “Sülh Şəhərləri Başçıları” təşkilatının üzv sayı dünyanın 165 ölkə və bölgələrindən olan 8031 şəhəri əhatə edir.

“Sülh Şəhərləri Başçıları” haqqında daha ətraflı məlumat almaq üçün http://www.mayorsforpeace.org/english/index.html saytına keçid ala bilərsiniz.